UOT 327

SƏKİNƏ BABAZADƏ
Bakı Dövlət Universtinin
Beynəlxalq münasibətlər kafedrasının doktorantı
sakinababazadehhh@gmail.com

HEYƏTİ TƏHRIR ƏŞ-ŞAM QRUPLAŞMASININ FƏALİYYƏTİ NƏTİCƏSİNDƏ HAKİMİYYƏTDƏN UZAQLAŞDIRILAN SONUNCU DİKTATOR- BƏŞƏR ƏSƏD

DOI: https://doi.org/10.36719/2708-065X/110/211-217

Beynəlxalq münasibətlərdə mühüm strateji əhəmiyyətə malik olan Yaxın Şərq regionu uzun illərdir ki, böyük dövlərin maraqlarının toqquşduğu əsas platformaların birinə çevrilmişdi. 2011-ci ildə regionda baş verən və "Ərəb baharı" kimi tanınan xalq hərəkatları bir sıra ərəb ölkələrində ciddi siyasi dəyişikliklərə səbəb oldu. Bu proses çərçivəsində Suriyada hökümət genişmiqyaslı etiraz aksiyaları ilə üzləşdi. Digər ərəb ölkələrində etirazların nəticəsi olaraq hakimiyyət dəyişikliyi baş verdi, lakin Suriyada isə əksinə, 2025-ci ilin əvvəllərinə qədər Bəşər Əsəd uzun müddət öz hakimiyyətini qoruyub saxladı. 13 ildən artıqdır davam edən vətəndaş müharibəsi uğraması ilə nəticələndi və Heyəti Təhrir əş-Şamın lideri Colani indiki adla Əhmət Şaraanın paytaxtda qələbə çalması ilə Bəşər Əsədin 24 illik davam edən rejiminin süquta uğradı.

Bu məqalədə Ərəb baharının Suriyaya təsiri, cəmiyyətə və ölkənin siyasi strukturuna təsirini, vətəndaş müharibəsininin yaranma səbəbləri, Bəşər Əsədin hakimiyyəti dövründə fəaliyyət göstərən qeyri-dövlət aktorları ilə mübarizə (daxili qüvvələr) və bu qeyri aktorlarının dəstəkləyən xarici qüvvələrlə mübarizəsi, həmçinin Əsədin diktator obrazı çərçivəsində hakimiyyətini necə qoruduğu barəsində araşdırılma aparılıb. Qeyri-dövlət aktorlarının hakimiyyət uğrunda mübarizəsi, xüsusilə region və qərb dövlətlərindən maliyyə dəstəyilə yaradılmış bu qruplaşmalar (İŞİD, YPG) nəyinki Suriyada, həmçinin bir sıra ölkələrdə belə fəaliyyət göstərməsi Yaxın Şərq regionuna ciddi təsir göstərmişdir. Eyni zamanda Suriya vətəndaş müharibəsinin nəticələri, Heyəti Təhrir Əş-Şamın Əsəd üzərində qalib gəlməsi və beynəlxalq münasibətlərə təsiri analiz olunmuşdur.

Açar sözlər: qeyri-dövlət aktorları, Bəşər Əsəd, diktator rejimi, beynəlxalq müdaxilə, vətəndaş müharibəsi.

Giriş. Qloballaşan dünyamızda xaos və müharibənin mərkəzlərindən biri olan, həmçinin, zəngin tarixə və enerji ehtiyatlarına malik olan Yaxın Şərq dünya siyasətində böyük əhəmiyyət kəsb edir. 2010-cu ilin dekabr ayında Tunisdə işsizlikdən əziyyət çəkdiyindən səyyar satıcılıqla məşğul olan Məhəmməd Buazzi adlı şəxs mövcud sosial vəziyyətə etiraz edərək özünün yandırdı. "Ərəb baharı" nın başlaması üçün kiçik qığılcım olan bu hadisə region dövlətlərində də etiraz dalğasının əsasını qoydu.

Atlantik okeanından Ərəb dənizinə qədər 20 ölkəni əhatə edən bu regionda işsizlik, diktator siyasəti, korrupsiya, qida inflyasiyası, bürokratik əngəllər, söz azadlığın məhdudlaşdırılması və s. məsələlər insanlar arasında böyük narazılıq yaratmışdı. Əlavə olaraq, ərzaq qiymətlərinin bahalaşması, yüksək inflyasiya əhalinin maddi rifahın daha da zəiflətdi. Bu vəziyyət nəticəsində etiraz dalğası Yaxın Şərq regionunda, xüsusən Tunis başda olmaqla bəzi ölkələrdə iqtidar dəyişikliklərinə səbəb oldu (Misir prezidenti Hüsnü Mübarəkin 30 ildən çox davam edən hakimiyyəti sona çatması və Liviyada Müəmmər Qəddafinin devrilməsi). Bəzi hökumətlərdə isə etirazların qarşısını almaq məqsədilə islahatlar həyata keçirməyə məcbur oldular. Lakin bu etirazlar və hərəkatlar yalnız müsbət dəyişikliklər gətirmədi, həm də Suriyada vətəndaş müharibəsi ilə nəticələndi [6, s.1-7].

Bəşər Əsəd 14 il hakimiyyətdə qalaraq, "Ərəb Baharı" nın yaşandığı ölkələrdə hakimiyyətdə uzun müddət qalan diktator liderlərdən biri oldu. 4 fevral 2011-ci ildə başlanan etirazlar Suriyada daha geniş bir sosial və siyasi narazılığın nəticəsi idi. Hökumətin həyata keçirdiyi ilk addım isə 48 illik fövqəladə vəziyyətin ləğv edilməsi oldu. Lakin bu addım əhalinin geri çəkilməsi üçün kifayət etmədi və aprelin 22-si 72 nəfərin qətlə yetirməsi ilə etiraz aksiyası daha da şiddətləndi. Suriya xalqının 2011-

ci ildə başlayaraq mütərəqqi tələblər üçün etiraz aksiyalarına başlamış, lakin əhali hökumət tərəfindən ciddi siyasi təzyiqlə üzləşmişdi. Bu proses və qeyri-dövlət aktorlarının rolunun artması vətəndaş müharibəsinə çevrilməsi, böyük insan tələfatına, Avropada miqrant probleminə və bəzi bölgələrin tamamilə xarabaxanaya çevrilməsinə səbəb oldu.

Əsəd rejimin həm bəzi qeyri-dövlət aktorlardan, həm beynəlxalq aləmdən (Rusiya və İran) geniş dəstək alması, hakimiyyətdə daha uzun müddət davam etməsinə zəmin yaratmışdır. Bu baxımdan, Bəşər Əsədin hakimiyyətdə qalması çox mürəkkəb və çoxsaylı faktorlardan asılı olmuşdur və bu faktorların təhlil edilməsi olduqca vacibdir [13].

Bəşər Əsədin hakimiyyətə gəlişi. Suriyanın 19-cu prezidenti olan Bəşər Əsəd, 2000-ci ildə atası Hafiz Əsədin vəfatı ilə hakimiyyətə gəlmiş və 24 il ölkəni idarə etmişdir. 1965-ci ildə Dəməşqdə dünyaya gələn Əsəd, İslam dininin Ələvi qoluna məxsus ailədə böyümüşdür. Dəməşq Universitetində göz həkimi ixtisası üzrə təhsil alan Əsəd, daha sonra təhsili Londonda davam etdirmişdir. Təhsilə, texnologiya marağı olan Əsəd, həmçinin həqiqi hərbidə xidmət edərək hərbi biliyə də yiyələnmişdir. Böyük qardaşı Basil Əsədin avtomobil qəzasında həyatını itirməsi, Bəşər Əsədin həyatını tamamilə dəyişdi. Hafiz Əsədin ölümündən sonra konstitusiyada dəyişiklik edilərək qeyd olunan prezident seçkilərində iştirak etmək üçün yaş həddi 40 yaşdan 34 yaşa endirildi. Bəşər Əsədin Avropada təhsili və texnologiyaya marağının olması prezident seçkilərində qalib gəlməsi ilə yekunlaşdı və yeni prezidentə xalq tərəfindən böyük ümidlər bəslənirdi [1, s.56-57].

Hakimiyyətin ilk illərində Bəşər Əsədin qarşısında iki seçim var idi: ya atası kimi diktator siyasətini davam etmək, və yaxud da ölkəni yeni strategiya ilə idarə etməkdir. Əsəd, Suriyanı sekulyar dövlət olduğunu iddia etsə də, sonrakı illərdə atasının yolundan gedərək totalitar-polis dövləti kimi idarə etməyə başladı və bu səbəbdən qərb dövlətləri onu diktator kimi qəbul etdi. Əsəd, başçısı olduğu Bəəs partiyasının gücünə mənfi təsir göstərəcək hər hansı bir təhlükə istəmirdi, lakin söz və mətbuat azadlığına dair yeni müsbət addımlar atdı və bir sıra siyasi məhbusları azad etdi. Bu hadisə gedişində Əsəd müsahibəsində iqtisadiyyatın inkişafı üçün yeni strategiyanın yaradılması və həyata keçirilməsinin, yeni siyasi addımlardan daha vacib olduğunu vurğulamışdı. Suriya tarixində bu müsbət addımlar "Dəməşq baharı" kimi qəbul olunmuşdu. Lakin bu sekulyar dövlət olmaq yolunda atılan addımlar çox qısa müddət davam etdi və Əsəd hökuməti siyasi kursunu dəyişərək, digər ərəb ölkələri kimi, diktator siyasəti ilə ölkəni idarə etməyə başladı.

Tarixdə "Dəməşg baharı" adı kimi tanınan bu hadisə, cəmiyyətdəki demokratik dəyişikliklər üçün bir çağırış olan mühüm bir prosesdir. İnsanlar birləşərək qruplar yaradır, xüsusi otaqlarda siyasi fikir mübadiləsi və problemlərlə bağlı müzakirələr aparıldılar. Müzakirələrin nəticəsi olaraq, jurnalistlər və sıra siyasətçilər tərəfindən siyasi tələblərdən ibarət "99 Manifestosu" hazırlanmışdı. Müxalifətin bu siyasi sənədində əsas tələblər polis və əsgərlərin məhəllələrdə nəzarətin sona yetməsi, xüsusi məhkəmələrin aradan qaldırılması, qadınların təhsil hüquqları, İsrail-Fələstin münaqişəsi ilə bağlı problemlər, siyasi məhbubların azad olunması və s. yer alırdı. Ayrıca, Suriya Konstitusiyasının 8-ci maddəsinin aradan qaldırılması ən əsas tələblərdən biri hesab olunurdu.

"Dəməşg baharı" Suriyanın daha demokratikləşməsi yolunda xüsusi kəsb edirdi və bu proses digər ərəb ölkələrində də marağa səbəb olmuşdur. Bu tələblər hakimiyyət tərəfindən qəbul edilmədi, lakin qarşısını almaq da mümkün olmadı. Qonşu dövlət olan Livanda da bu tələblərdən ibarət yazılar qəzet və jurnallarda dərc edilmişdir. Tələbləri hazırlayan bəzi şəxslər həbs olundu. Əsas şəxslərdən biri olan Riad 71 yaşında həbs edildi, iqtisadi problemləri dilə gətirən Arif Dalilla isə 10 il müddətində azadlıqdan məhrum edildi. Lakin bu həbslər "Şam baharı"nın təsir gücünü azaltmadı və kürdlər, liberallar, Müsəlman Qardaşlar, nüsrəçilərdən ibarət müxalif qruplar Əsəd rejiminə qarşı tələbləri hələ də davam edirdilər və bu qruplar birlikdə "Şam Deklarasiyası" hazırlamışdı. Şam deklarasiyası nədir? Buraya milliyyətindən asılı olmayaraq, birlik olub azad Suriya dövləti yaratmaq, demokratiyaya keçid, insan haqlarının qorunması, kürd probleminin həll edilməsi və hökumətlə ortaq yol üçün dialoq tələb edilməsi daxildir və onlar həmçinin kürdlərə vətəndaşlığın verilməsi və ana dilində təhsil almasını da dəstəkləyirdilər.

Şam deklarasiyası, müxalifətin ortaq təşəbbüsü olaraq ölkədə ciddi dəyişiklərə səbəb olsa da, bu proses uzun müddət davam etmədi və 2005-ci ilə qədər fəaliyyətini dayandırdı. 2006-ci ildən sonra Əsəd siyasi kursunu dəyişərək atasının yolundan davam etməyi üstün tutdu beləliklə partiyalar üzərin-

də ciddi nəzarət, bəzi siyasətçilərin həbsi, xüsusilə Nusayri partiyasının üzvlərinə qarşı siyasi təzyiq və müxalifətin "cihatçı terrorçular" kimi adlandırılması kimi bəzi məsələlər ortaya çıxdı. Əsəd, həmçinin manipulyasiyadan istifadə edərək hakimiyyətdən getsə belə, milli azlıqların təhlükədə olacağı ritorikasını gündəmə gətirirdi. Nusayri partiyasının üzvü olan Əbdul-əziz al-Xairi, Çində olduğu zaman əlaqə kəsilərək itkin düşdü və indiyə qədər onunla bağlı məlumat tapılmadı. Bəzi politoloqların fikrincə, onun öldürülməsi iqtidarın əli ilə baş vermişdir. Son olaraq, müxalif qruplara üz olan bəzi şəxslər öldürülmüş və ya ölkədən deportasiya olunmuşdur, həmçinin rejim tərəfindən müxalif partiyalara qarşı da siyasi təzyiq vasitələrindən istifadə olunmuşdur. Rejim əleyhinə olan siyasi təzyiqlər davam etsə də, Əsəd rejimi devrilməsinə nail ola bilmədi, bu səbəbdən müxalif qruplar Əsədin hakimiyyətdən devrilməsinə şahid olmağa müvəffəq ola bilmədilər [9].

Bəşər Əsədin hakimiyyəti dövründə Suriya, bir tərəfdən yeni iqtisadı strategiya həyata keçirir, digər tərəfdən siyasi islahatlar aparılırdı. Siyasi islahatlar çərçivəsində dövlət orqanlarında uzun müddət fəaliyyət göstərən şəxslərin işdən azad edilərək həmin vəzifələrdə gənclər təyin edilməsi, gənclərə dəyər verərək ön plana çıxarılması kimi addımlar atılırdı, həmçinin gücün balanslaşdırılması kimi məsələlər öz yerini tapmışdı. 2001-ci ildə 1000-ə yaxın [10] ziyalı çoxpartiyalı demokratiya və azadlığa dair petisiya imzaladığı üçün polislər tərəfindən həbs edildi. İqtisadi islahatlara isə iqtisadiyyatın bəzi sahələrini özəlləşdirilməsi kimi yeniliklər özündə əks etdirsə də, əvvəldən belə bəzi problemlər mövcud idi. Bu iqtisadi inkişaf dan xalq xeyir əldə edə bilmirdi, məmur və elit təbəqə bu inkişafdan istifadə etdilər. Həmçinin, beynəlxalq miqyasda fəaliyyət göstərən banklar Suriyada yeni filialların açmağa başladı və özəl sektorun inkişafı üçün bir sıra qərarlar qəbul olundu və bu proseslərin nəticəsində Suriya da özəl bankların, sığorta şirkətlərin, yeni ticarət və əyləncə mərkəzlər, restoranların sayı artdı və Hafiz Əsədin dövründən fərqli olaraq, Suriya daha müasir dövlətə çevrildi. Lakin iqtisadiyyatda tətbiq olunan yeni strategiya müsbət nəticələr vermədi. Xüsusilə, beynəlxalq müqavilələrə əsasən, Əsəd rejimi Avropa ölkələrindən Suriyanın iqtisadiyyatının liberallaşdırılmasına dəstək gözləyirdi.

Bəşər Əsədin dövründə Suriyanın xarici siyasəti, ölkənin ənənəvi ərəb millətçiliyi mövqeyi ilə iqtisadı islahatlar proqramının tələb etdiyi qərbyönümlü siyasət arasında iki fərqli istiqamət mövcud idi. İsraillə davam edən münaqişə və ABŞ-ın İraqa müdaxiləsi, davam edən millətçi müqaviməti daha da gücləndirdi. Lakin Suriyanın bazar iqtisadiyyatına yönəlməsi, ABŞ-ın hegemonluq etdiyi dünya kapitalist sisteminə inteqrasiyasını tələb edirdi. Bəşər, hakimiyyətin ilk illərində Suriyaya təzyiqlərin azaltmaq və ittifaqlara daxil olmaq məqsədilə həm qonşu ölkələrlə, (xüsusilə Türkiyə), həm də böyük dövlətlərlə normal münasibət yaratdı. Çünki bu dövrdə region dövlətlərdən yalnız İsraillə Suriya arasında normallaşma siyasəti baş tutmadı. Lakin proseslər öz müsbət nəticəsini də vermədi. 2003-cü ildə İraqda və 2006-ci il Livanda başlayan müharibələr, Yaxın Şərqdə siyasi proseslər daha da gərginləşdirdi. Livanın keçmiş lideri Refik Hariri, Suriyada baş verən hadisələrə münasibət bildirərkən, Əsəd rejiminin idarəetmə üsulunu da tənqid etmişdi. Bu hadisədən sonra Haririn 2005-ci ildə öldürülməsi Suriyada təsirsiz ötüşmədi və livanlılar, Suriya hakimiyyətini liderin öldürülməsində günahlandıraraq, Suriya ordusunu Livandan geri çəkməyə məcbur oldu. Bəşər, Misir və Səudiyyə Ərəbistan kimi ənənəvi ərəb tərəfdaşlarından da uzaqlaşdı. Beləliklə, siyasi manevr edərək, Yaxın Şərqdə Qərb dövlətlərin qarşısında duraraq, İran-Suriya birliyi güc uğrunda mübarizəyə başladılar. Yaxın Şərqdə güc uğrunda mübarizədə bir tərəfdən ABŞ, Avropa İttifaqı tərəfindən dəstəklənən Misir, İordaniya, Səudiyyə Ərəbistan və digər tərəfdən Livan, Fələstin, İran, Suriya iştirak edirdilər.

Hər iki tərəflə münasibətləri inkişaf etdirmək Suriyanın xarici siyasətin əsas məsələsi idi . Bir tərəfdən, Suriya, xüsusilə Avropa ölkələrindən iqtisadi liberallaşması üçün maddi və siyasi dəstək gözləyirdi. Çünki Əsəd hökuməti dünya kapitalist sisteminə daxil olmağa can atırdı, Fransa ilə detente, Türkiyənin dəstəyi ilə isə İsrail-Suriya arasında sülh danışıqların yenidən başlaması və ABŞ-da yeni prezident seçilən Barak Obama ilə dialoq yer alırdı, həmçinin, bu prosesdə Avropa-Aralıq Dənizi müqaviləsidə xüsusi yer tuturdu. Digər tərəfdən, Suriyanın xarici siyasətində İranla müttəfiqlik edərək Asiya ölkələri ilə, xüsusilə Rusiya ilə birlikdə təhlükəsizlik və iqtisadi əlaqələr qurulurdu.. Burada əsas məsələ Suriya dövlətinin milli maraqları idi və əgər hər hansı bir təhdid yarandıqda, Suriya digər tərəfi seçərək öz siyasi kursunu həyata keçirirdi. Corc Buş administrasiyasının tətbiq etdiyi iqtisadi sanksiyalar nəticəsində xarici şirkətlər Suriyada fəaliyyətini dayandırmağa məcbur oldular, bank sistemi, neft

və telekommunikasiya kimi həyati vacib sahələrdə fəaliyyət çətinləşdi. Obama isə Suriya hökumətini "terrorçuların maaliyyəşdirilməsi və İraqa axını" ittiham edərək bu iqtisadi sanksiları daha da artırdı. Həmçinin, BMT-nin Nüvə Enerjisi Agentliyi tərəfindən İsrailin şikayətilə Deir-ez-Zorda nüvə silahı ilə bağlı Suriyaya ittiham irəli sürüldü. Beləliklə, Bəşər Əsəd Suriya xarici siyasətdə mümkün olan bütün yollarda öz maraqlarını qorumağa çalışırdı [2, s.13-15, 25].

Ərəb Baharının Suriya üzərindəki təsiri və diktatora çevrilməsi. 2011-ci ildə Suriyada başlayan "Ərəb baharı" yekunda Bəşər Əsədin devrilməsinə qədər gətirib çıxartdı. Bu etirazlar daha sonra digər şəhərləri də əhatə edərək, Bəşər Əsəd üçün bir xəbərdarlıq oldu. Hökumət, xalqın qəzəbindən qorunmaq məqsədilə bir sıra islahatlar keçirdi – bəzi məmur və millət vəkillərinin istefa verməsi, siyasi məhbusların həbs olunması, kürt əsilli insanlara vətəndaşlığın verilməsi və s. Lakin bu islahatlar o qədər də işə yaramadı. Xalq, yüksək vəzifəli məmurlara və polislərə qarşı narazılığı daha da artıraraq, etiraz aksiyalarını vətəndaş müharibəsinə çevirdi. Müxalifət qrupları tərəfindən iyun ayında Bəşər Əsədin devrilməsi üçün təkan edilsə də, bu cəhd uğursuz oldu və Əsəd qüvvələri tərəfindən ilk dəfə qarşı tərəfə hərbi müdaxilə həyata keçirildi. 20 martda Öməri məscidində hökumət tərəfindən silahlı basqın nəticəsində 9 nəfər öldürüldü və bu hadisə ilk qanlı basqın kimi yaddaşlara yazıldı. 24 mart tarixli aksiyada isə 20.000 insan iştirak etmiş və 1 ay içində 50 insandan çox insan həyatını itirmişdi [3, s.206]

Bəs bu müxalifət qüvvələrə kimlər daxildir? Etiraz edən qruplara uzun müddət Ələvi zülmü altında yaşayan, bir çox məhdudiyyətləri olduğu üçün dövlət orqanlarında təmsil olunmayan Sünnilər, xristianlar və dürzilər, illərdir fəaliyyət göstərməsi qadağan edilən Müsəlman Qardaşları, cəmiyyətdə nüfuzlu nümayəndələri, işsizlikdən əziyyət çəkən gənclər və keçmiş dövlət məmurları və s. daxildir. Hama şəhərində iki aya yaxın bir zaman müddətində hakimiyyət tanklar vasitəsilə insanlara nəzarət edirdi və hətta məscidlərdə belə ibadət edən insanlara təzyiq göstərilirdi. Lakin böyük şəhərlərdə, xüsusilə, İdlib və Homs şəhərlərində ticarətlə məşğul olan sünnilər, radikal islamçılarının qorxusuna görə, Əsəd hökumətinə dəstək olaraq xüsusi qrup halında fəaliyyət göstərirdi. Etiraz dalğası 5 cəbhədə fəaliyyət göstərirdi: Şimaldan hökumətə havadan zərbə vurulurdu və ən sonunda Hələp-Şam yolunu nəzarətə almasına, şərqdən hidroelektrik stansiyaların ələ keçirilməsi və beləliklə, yeni strateji qazanclar nəticəsində Rəqqa şəhəri müxalifətçilər tərəfindən 2023-cü il mart ayından ələ keçirildi. Müxalifət daha da irəliləyərək artıq paytaxtda rejimlə qarşı-qarşıya qalmışdı. Müxalifət tərəfindən mübarizə aparan Azad Suriya Ordusuna rütbəli əsgərlər iştirak edirdi [4, s.134].

2014-cü il Suriyada hərbi və siyasi cəhətdən kritik bir dövr idi. Yeni terror qruplarının meydana çıxması Bəşər Əsəd üçün vəziyyəti daha da çətinləşdirirdi. İŞİD-in ərazilərini genişləndirməsi və döyüşlərin təkcə Suriya daxilində deyil, eyni zamanda ətraf ölkələrdə də təsir yaratması regionun gərginliyi daha da artırmışdı. İŞİD terror təşkilatı Suriya və İraqın böyük hissəsinin nəzarətini ələ keçirmişdi və İŞİD-in yalnız müxalifətlərə deyil, həm də Əsəd rejiminə və YPG-yə qarşı hücumları müharibənin çox tərəfli və dəyişkən olduğunu göstərirdi. Kobani döyüşü, xüsusilə diqqət cəlb edir, çünki bu mübarizə yalnız yerli qüvvələr arasında deyil, həm də beynəlxalq güclər arasında bir sınağa çevrildi. ABŞ-ın koalisiyasının hava hücumları İŞİD-in genişlənməsinin qarşını almaq üçün atılan mühüm addımlardan birini təşkil edirdi. İranın Suriyadakı hərbi varlığı isə xüsusilə diqqət çəkirdi. İranın İnqilab Keşikçiləri və Hizbullah kimi qüvvələri Əsəd rejiminin yanında yer alaraq, Suriyadakı və regiondakı siyasi və hərbi dinamikanı əhəmiyyətli dərəcədə dəyişdirdi. İranın bu hərbi varlığı Suriyanın gələcəyi barədə bir çox mübahisələrə və narahatlıqlara səbəb olmuşdu. Bu dövr həmçinin beynəlxalq siyasət və müharibə nəzəriyyəsi baxımından da çox əhəmiyyətli elementlərə malik idi. Bu hadisələrin nəticələri yalnız Suriyada deyil, bütün Yaxın Şərq regionunda uzunmüddətli təsir yaratdı. Bu dövrdə Əsəd Dəməşg, Homs, Hama şəhərlərində möhkəmlənmədi və rütbəli hərbiçilər YPG terror təşkilatının tərkibində döyüşlərdə iştirak edirdilər. Artıq Suriyada Əsəd qüvvələri, Azad Suriya Qüvvələri, İŞİD, YPG hakimiyyət uğrunda mübarizə aparırdılar. Hər bir qrupun bu münaqişədə fərqli maraqları, strategiyası və xarici dəstəçiləri mövcud idi ki, bu da ölkədəki güc balansını qeyri-stabil hala gətirir və hərbi qarşıdurmaların sona çatmasını çətinləşirdirirdi [5, s.40].

Suriya vətəndaş müharibəsinin inkişafı və beynəlxalq müdaxilələr. İstər geosiyasi mövqeyi, istər nəhəng enerji ehtiyatları ilə zəngin olması səbəbindən Suriyada vətəndaş müharibəsi zamanı böyük dövlətlərin diqqət mərkəzinə olmuşdur. Bu vətəndaş müharibəsi beynəlxalq münasibətlər sistemində üç fərqli yanaşmanı ortaya çıxartdı - 1) Bəşər Əsədi dəstəkləyən İran və Rusiya; 2) müttəfiq

olan qərb dövlətləri və ABŞ və 3) terrorizmlə mübarizə aparan və sərhəd təhlükəsizliyini adı altında Suriyada hərbi əməliyyatlar aparan Türkiyə. Həmçinin, Səudiyyə Ərəbistan, İsrail burada milli maraqları səbəbilə aktiv olan ölkələr hesab olunur. 2015-ci ildən etiraz Rusiya İŞİD-ə qarşı birgə mübarizə apararaq, ilk dəfə hava qüvvələri vasitəsilə zərbələr etməyə başladı, hərbi bazası Tarsu hakim qüvvələrə dəstək verməsi məqsədi ilə yaradılmışdı və bir sıra vacib məntəqələrini terror təşkilatının işğalından azad etdi (Palmira şəhəri). Rusiyanın əsas məqsədlərindən biri də Yaxın Şərqdəki hərbi-strateji və iqtisadi maraqlarını qorumaqdır, milli maraqların qorunması və güc mübarizəsində öz rolunu göstərmək üçün Əsəd rejimini dəstəkləyirdi. İran-Rusiya-Əsəd qüvvələri kimyəvi silahlardan istifadə etdiklərinə görə beynəlxalq arenada ittiham olunurdu. ABŞ və qərb dövlətləri ilə birgə yaratdığı koalisiya qüvvəsi isə digər tərəfdən İŞİD-ə hücum edərək, bəzi istinad nöqtələrini, xüsusilə də Deir El-Zor öz nəzarəti altına aldı. Lakin Ukrayna-Rusiya müharibəsinin başlanması və Rusiyanın bu münaqişəyə diqqətini ayırması, ayrılan hərbi və maliyyə yardımın azalmasına da səbəb oldu. İran və Rusiyanın Suriyadan geri çəkilməsi Əsədin Şamdakı nəzarətini ciddi sürətdə zəiflətdi [16].

İran, münaqişənin başlandığı gündən Əsəd rejimin hakimiyyətdə qalması üçün həm maddi yardım, həm də hərbi yardım edirdi. 2012-2014-cü illər arasında Qasım Süleymanın rəhbərliyi daxilində Qüdsdə hərbi əməliyyatlarda iştirak edən bir sıra hərbiçilər, həmçinin İran İnqilab keşikçiləri və Hizbullah terror təşkilatının üzvlərini müxalifətə qarşı mübarizədə Əsədə tabe olan "Xalq ordusu" daxilində fəaliyyət göstərirdi və bu, iki qrupdan ibarət olan əsas mərkəzlərdən biridir. İlk qrup, 2016-ci ildən etibarən İran ordusunun tabeliyində olan İnqilabi Keşikçilər tərəfindən idarə olunurdu və əsasən Hələp və ətraf regionlarda bir çox döyüşlərdə iştirak etmişdir. Digər qrup isə əsasən ehtiyatda olan könüllü şəxslər tərəfindən yaradılmış və onların əsas məqsədləri döyüşlərdə deyil, Əsəd hökumətinin təhlükəsizliyini təmin etmək və daha sadə hərbi əməliyyatda iştirak etmək idi. İran, Suriyaya quru qoşun göndərən yeganə ölkədir. 2016-ci ildə 1000-dən çox şəxsin Suriyada öldürüldüyü barədə mətbuatda məlumat yayıldı, 2017-ci yanvar ayında isə İran Şəhidlər Fondu tərəfindən verilən məlumata görə bu rəqəm 2100-a çatmışdı. Lakin Əsəd rejimi mübarizəsi getdikcə zəifləyirdi. İran, Əsəd hökumətini dəstəkləyən yeganə regiondakı ölkə olsa da, İran- İsrail qarşıdurmasının alovlanması və iqtisadiyyatın zəifləməsi Suriyada güc balansında İranın mövqeyinin zəiflənməsinə səbəb olmuşdur. Rəsmi Tehranın hazırkı marağı öz sərhəd təhlükəsizliyini qorumaqdır [7, s.9-13.]

Türkiyə tərəfindən dəstəklənən Suriya Milli Ordusu "Fərət qalxanı", "Barış pınarı" adı altında şimal-şərqində fəaliyyət göstərən, əsas məqsədi muxtariyyət YPG qarşı döyüşlərdə iştirak edir. Beynəlxalq terrorizmə qarşı mübarizə aparmaq və strateji mövqeləri qorumaq ABŞ-ın əsas milli maraqlarıdır ki, bu səbəbdən Suriyanın şimalında əsas mövqeləri ələ keçirən YPG İŞİD-lə mübarizədə həm maddi, həm hərbi köməyi əsirgəmir. Bu dəstək Türkiyə-ABŞ münasibətlərində də öz gərginliyini göstərib, çünki R.T. Ərdoğan hökuməti tərəfindən YPG -ni PKK-nın davamçısı kimi qəbul edilir və bu səbəbdən iki dövlət arasındakı strateji tərəfdaşlıq zəiflədi. Hökumət qüvvələri bəzi mövqelərdən zəifləməsi müxalifət üçün, məsələn, Heyət Təhrir əş-Şam hərbi qruplaşma üçün şans yaratdı və daxili müdafiə xətlərini məhv edib sıradan çıxaran əməliyyatlar həyata keçirməyə çalışırdılar. Müxalif qüvvələrinin artan gücü və beynəlxalq güclərin göstərdiyi təzyiqlər və Rusiya, İranın təsir gücünün azalması 4O illik səltənətin devrilməsini sürətləndirdi [11].

Qərb dövlətləri tərəfindən dəstəklənən müxalifət, Əsəd rejiminə qarşı tələblər irəli sürülsə də, Əsəd Rusiya və İranın hərbi və siyasi dəstəyi ilə hakimiyyətdə qalması mümkün oldu. Lakin 8 dekabr 2024-cü ildə Əsəd hökuməti müxalifət qrupu tərəfindən devrildi, onun hakimiyyətdən getməsi müxalifət və beynəlxalq güclərin arasındakı birlik və əlaqənin olmaması ilə də əlaqəlidir. 9 dekabr 2024-cü ildə Heyəti Təhrir əş-Şam qrupunun lideri Dəməşg şəhərinin fəthi ilə bağlı açıqlama verərək, şəhərin artıq onların nəzarətində olduğunu və Əsədin ölkəni tərk etdiyini bildirdi. Suriya Demokratik Gücləri adlı kürdlərin qrupunun lideri Mazlum Abdi isə verdiyi müsahibədə isə Əsədin devrilməsini tarixi an kimi qiymətləndirdi [14].

Nəticə. Bəşər Əsədin hakimiyyətdən getməsi Suriyada vətəndaş münaqişəsinin sona çatdığını anlamına gəlmir. Əksinə, hazırkı vəziyyət daha da mürəkkəbləşib və ölkə uzun müddətdir ki, ciddi sosial, iqtisadi və siyasi böhranla mübarizə aparır. Vətəndaş müharibəsi zamanı ölkənin parçalanması və mülki itkilərlə yekunlaşmayıb, həm də Avropa və Türkiyədə qaçqın problemlərinə və ciddi humanitar problemlər də yaradıb.

Suriyada münaqişənin eskalasiyası vətəndaşların həyatını da çətinləşdirib. Hərbi əməliyyatlar nəticəsində şəhərlər və kəndlər xarabaxana çevrilib, dünya əhəmiyyətli tarixi abidələr məhv olub, elektrik və su təchizatı, təhsil və xidmətləri çox zəifləmiş və infrastruktur ciddi şəkildə ziyan görüb. Beynəlxalq humanitar yardım edilsə də, hərbi qarşıdurmaların davam etməsi və təhlükəsizlik məsələlərin həll olunması bu yardımların effektliyini azaldır. Çünki BMT və digər təşkilatlardan göndərilən yardımlar münaqişə bölgələrinə çatdırılmasında təhlükəsizlik və digər problemlərlə üzləşir.

Suriyanın gələcəyinə dair böyük ümidlər daxili dialoq və beynəlxalq əməkdaşlıqdan keçir. Sülhə nail olmaq üçün həm münaqişədə iştirak edən müxalifət qrupları arasında razılığa gəlmək, həm də regional dövlətlər və dünya miqyasında güclərin əməkdaşlığı vacibdir [8, s.81].

Bütün bunlar göstərir ki, Suriyanın gələcəyi 3 faktordan, həm daxili qrupların birləşməsindən, həm də beynəlxalq qüvvələrin əməkdaşlığından və hər iki tərəfin maraqlarının uyğunlaşdırılmasından asılıdır. Mövcud vəziyyətin qeyri-sabit olması münaqişənin gələcək də necə inkişaf edəcəyini söyləmək çətindir.

ƏDƏBİYYAT

1. Skvorc C, Drumhiller N. Physician, then Political Dictator Bashar al-Assad, President of the Syrian Arab Republic, Global Seciurtiy and Intelligence Studies, Vol 7, N 1, 2022, p.56-57.
2. Hinnebusch, R. Syrian Foreign Policy under Bashar al-Assad// Ortadoğu Etütleri, №1, 2009, p. 13-15, 25
3. Karkın V, Yazıcı Ö. Arap Baharı" nın Suriye" ye Yansıması ve Türkiye"yü sığınan Mülteciler (Gaziantep Örneği)//21.Yüzyılda Eğitim ve Toplum, №12, 2015, 206 s.
4. Acar H. Suriye Halkının Beşar Esad"a Direnme Hakkı: 3 Sözleşmeci Bakış // Araşdırma Görevlisi, Kocaeli Üniversitesi, Uluslararası İlişkiler Bölümü, №37, 2013, 134 s.
5. Gökçe Ö.T. Arap Baharı Sürecinde Suriye İç Savaşı ve Esad Rejiminin Ayakda Kalma Nedenleri (2011-2014) // Sosyel Bilimler Enstitüsü Dergisi, №2, 2021, 40 s.
6. Azfal M, Qadir Mushtaq A. Arab Spring: Its Causes and Consequences, Vol.30, №1, 2017, p.1-7.
7. Kam E, Iranian Military Intervention in Syria//Strategic Assessment, №2, 2019, p. 9-13
8. Atlıoğlu Y. Suriye Dış Politikasında Güc ve Güvenlik İlişkisi// Bilge Strateji, №1, 2009, 81 s.
9. https://serbestiyet.com/gunun-yazilari/sama-bahar-gelecek-mi-191527/ [11.08.2025].
10. https://tr.euronews.com/2024/12/08/esadin-dususu-suriyedeki-50-yillik-hanedan-yonetiminin-sonunu-getirdi [11.08.2025].
11. https://report.az/analitika/suriya-gerginliklerin-merkezi-ve-beynelxalq-guc-mubarizesi-analiz/ [11.08.2025].
12. https://www.tuicakademi.org/arap-bahari-ve-nedenleri/ [11.08.2025].
13. https://www.aljazeera.com/news/2018/4/14/why-is-bashar-al-assad-still-in-power [11.08.2025].
14. https://www.nytimes.com/live/2024/12/08/world/syria-war-damascus [11.08.2025].
15. https://www.cfr.org/global-conflict-tracker/conflict/conflict-syria [11.08.2025].

САКИНА БАБАЗАДА
Докторант Бакинского государственного университета

ПОСЛЕДНИЙ ДИКТАТОР, ОТСТРАНЕННЫЙ ОТ ВЛАСТИ В РЕЗУЛЬТАТЕ ДЕЯТЕЛЬНОСТИ ГРУППИРОВКИ ХАЙАТИ ТАХРИР АЛЬ-ШАМ - БАШАР АСАД

Ближневосточный регион, имеющий важное стратегическое значение в международных отношениях, на протяжении многих лет становится одной из основных площадок столкновения интересов крупнейших держав. Народные движения, произошедшие в регионе в 2011 году, известные как «Арабская весна», привели к серьёзным политическим изменениям в ряде арабских стран. В рамках этого процесса правительство в Сирии столкнулось с масштабными про-

тестами. В результате протестов в других арабских странах произошла смена власти, но в Сирии, напротив, Башар Асад сохранял власть в течение длительного времени, вплоть до начала 2025 года. Гражданская война, продолжавшаяся более 13 лет, завершилась поражением лидера «Хайят Тахрир аш-Шам» Ахмеда Шараа и победой в столице 24-летнего режима Башара Асада.

В данной статье рассматривается влияние «арабской весны» на Сирию, её влияние на общество и политическую структуру страны, причины гражданской войны, борьба с негосударственными субъектами (внутренними силами), действовавшими в период правления Башара Асада, и борьба с внешними силами, поддерживающими эти негосударственные субъекты, а также то, как Асад сохранял свою власть в рамках своего диктаторского имиджа. Борьба негосударственных субъектов за власть, особенно деятельность этих группировок (ИГИЛ, YPG) не только в Сирии, но и в ряде стран, оказала серьёзное влияние на ближневосточный регион. Одновременно анализируются последствия сирийской гражданской войны, победа «Хайят Тахрир аш-Шам» над Асадом и её влияние на международные отношения.

Ключевые слова: диктаторский режим, международная интервенция, гражданская война.

SAKINA BABAZADA
Doctoral student of Baku State University

THE LAST DICTATOR WHO WAS REMISSED FROM POWER AS A RESULT OF THE ACTIVITIES OF THE HAYATI TAHRIR AL-SHAM GROUP – BASHAR ASSAD

The Middle East region, which has a significant strategic importance in international relations, has for many years become one of the main platforms where the interests of major powers clash. The popular movements that took place in the region in 2011, known as the “Arab Spring”, led to serious political changes in a number of Arab countries. As part of this process, the government in Syria faced large-scale protests. As a result of the protests in other Arab countries, a change of government took place, but in Syria, on the contrary, Bashar al-Assad retained his power for a long time until early 2025. The civil war that had been going on for more than 13 years ended with the defeat of the leader of Hayat Tahrir al-Sham, Ahmed Sharaa, and the victory in the capital of Bashar al-Assad's 24-year-long regime.

This article examines the impact of the Arab Spring on Syria, its impact on society and the political structure of the country, the causes of the civil war, the struggle with non-state actors (internal forces) operating during the rule of Bashar al-Assad and the struggle with external forces supporting these non-state actors, as well as how Assad maintained his power within the framework of his dictatorial image. The struggle of non-state actors for power, especially the operation of these groups (ISIS, YPG) not only in Syria but also in a number of countries, has had a serious impact on the Middle East region. At the same time, the consequences of the Syrian civil war, the victory of Hayat Tahrir al-Sham over Assad, and its impact on international relations are analyzed.

Keywords: dictator rejime, international intervention, civil war.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 11 avqust 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: s.e.f.d. Əlimusa İbrahimov, t.ü.f.d. Məmmədağa Baxışov.